Nağıllar aləmi 3



# Reyhan və Kamal





Əhməd adlı birisinin Reyhan və Kamal adlı iki usağı var idi. Bir gün Əhmədlə arvadı qonşuya getmisdilər. Usaqlar evdə qalmışdılar.

Axşam idi, qaranlıq düşürdü. Reyhan qapıya çıxıb dedi: – Gedək, bağda bir az gəzək.





Kamal dedi:

– Yox, atam gələr, savaşar.

Reyhan dedi:

– Tez qayıdarıq.

Kamal onun sözünü sındırmadı. Hər iкisi bir-birinə qoşulub bağa getdi. Bir də gördülər, bir yeкə qurd onlara tərəf gəlir. Uşaqlar çığıra-çığıra qaçmağa başladılar.



Qurd onların qabağını kəsdi və dişlərini şaqqıldadıb dedi:

– Hara qaçırsınız? Düşün qabağıma!

Kamal dedi:

– Ey qurd, sən balalarının canı, bizi yemə, qoy gedək.

Qurd onların hərəsinə bir quyruq vurub dedi:

– Qabağıma düşün!

Uşaqlar ağlaya-ağlaya onun qabağına düşdülər. Qurd onları öz yuvasına apardı. Qurdun balaları analarına dedilər:

– Ana, bunları yeyək, oynadaq.





Anaları razı oldu, Reyhanla Kamalı balalarına verdi. Qurdun balaları Reyhanla Kamalı içəri apardılar, bunlara qoyun quyruğu yedirtdilər. Bir neçə gün keçdi. Reyhanla Kamal qurd balaları ilə dost oldular. Onlara oxumaq, oynamaq da öyrətdilər. Bir gün qurd çox gəzdi və yeməyə bir şey tapmadı, ac evə gəldi. Kamalı yemək istədi, balaları ağlaşıb qoymadılar. Qurd o gün bir yana çıxmadı. O, gecəni araya salmaq, uşaqların birini yemək istəyirdi.

Kamal da bunu duymuşdu.

Günortaüstü qurd və balaları yatmışdılar.
Kamal tez bir ocaq qaladı.
İki şiş qızdırdı,
bacısına dedi:

– Bacı, qurd bizi bu gecə yeyəcək. Tez ol, bu şişləri onun gözlərinə soxub qaçaq.



Uşaqlar şişləri götürüb qurdun gözlərinə soxdular və qapıdan çıxıb qaçdılar. Qaçhaqaç bir meşəyə çatdılar.

Bir də gördülər, bir ayı onlara tərəf gəlir. Ətəklərini qumla doldurub bir ağacın başına çıxdılar.





Ayı gəldi, ağaca dırmaşdı, uşaqların yaxınlığına çatanda, uşaqlar onun gözlərinə qum səpdilər.

Ayı tappıltı ilə yerə düşdü, gözlərini ovmağa başladı. Kamalgil tez ağacdan düşüb qaçdılar.





Ta ki gəlib bir mağaraya çatdılar. Mağaraya girib gördülər, burada bir küp qarısı oturub ki, ağzından, gözlərindən ilan-qurbağa tökülür. Qarı uşaqları görən kimi dişlərini şaqqıldadıb dedi:

– Siz xoş gəlmisiniz. Nə bildiniz ki, mənim könlümə insan əti düşüb?

Kamal dedi:

– Qarı nənə, biz altı ayaq, yeddi baş pəhləvanın uşaqlarıyıq.

Qarı dedi:

– Altı ayaq, yeddi baş da adam olarmı? Kamal dedi:

– İndi gələr, görərsən.

Qarı dedi:

– Haradadır?

Kamal dedi:

– Yoldadır. Bu saat gələr.

Qarı dik sıçrayıb dedi:

– Mən getdim. Məni görməz.

Qarı küpə minib göyə qalxdı, yox oldu.







Uşaqlar qarının evindən adama bir xurcun qızıl götürdülər, yola *düşdülər. Ac-susuz üç gün yol get-*dilər. Acından taqətdən düşdülər. Bir ağacın dibində yerə oturdular.

Bir-birinin boynunu qucaqlayıb yatdılar. Bunlar burada qalsınlar, sizə uşaqların ata və anasından xəbər verim. Əhməd кişi ilə arvadı qonşudan evə gəldilər, gördülər uşaqlar yoxdur. Nə qədər axtardılarsa, tapa bilmədilər.

Ayaqlarına dəmirdən çarıq geydilər, əllərinə dəmirdən əsa aldılar, uşaqlarını axtarmağa başladılar. Kəndləri, şəhərləri, meşələri gəzdilər, uşaqlarından bir nişan tapmadılar. Naəlac qalıb ağlaya-ağlaya evlərinə qayıtdılar. Yolları həmin bu ağacın dibindən düşdü, Gəlib nə gördülər? Uşaqları bir-birinin boynuna sarılıb yatıblar. Ata-ana gözlərinin yaşını töкə-töкə onları ayıltı.



Onlara su və çörək verdilər. Uşaqlar özlərinə gəldilər. Ata və analarını tanıdılar, boyunlarına sarıldılar. Uşaqlar başlarına gələn əhvalatı onlara nəql elədilər. Qızıl dolu xurcunları götürüb sevinə-sevinə evlərinə gəldilər.

60 qəpik



ISBN 978-9952-27-063-1

9 789952 270631

ÇAŞIOĞLU